RƏMZİYƏ ƏBDÜRRƏHİMOVNA JURAYEVA



Rəmziyə Əbdürrəhimovna Jurayeva 28 aprel 1989-cu ildə Özbəkistan Respublikasının Fərqanə vilayətində anadan olmuşdur. Milliyyətcə özbəkdir.

1995-ci ildən 2005-ci ilə qədər Furkat rayonundakı 28 nömrəli orta məktəbdə təhsil almışdır.

2006-2010-cu illərdə Kokand Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsində Özbək dili və ədəbiyyatı ixtisası üzrə təhsil almışdır. 2010-2012-ci illərdə Kokand Dövlət Pedaqoji İnstitutunda Özbək dili ixtisası üzrə magistr dərəcəsi almışdır.

2017 ildən Kokand Dövlət Pedaqoji İnstitutunun Özbək dili kafedrasında müəllim kimi pedaqoji fəaliyyətə başlamışdır.

27 may 2022-ci ildə Kokand Dövlət Pedaqoji İnstitutunda “Mukiminin əsərlərinin leksik və semantik xüsusiyyətləri” mövzusunda dissertasiyasını uğurla müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru (PhD) elmi dərəcəsi almışdır.

Rəmziyə Jurayeva 3 iyun 2026-cı ildə Özbək Dili, Ədəbiyyatı və Folklor İnstitutunda “Mukiminin əsərlərinin linqvistik tədqiqi” mövzusunda doktorluq dissertasiyası müdafdiə edərək filologiya elmləri doktoru elmi dərəcəsi almışldır.

Rəmziyə Əbdürrəhimovna Jurayeva 2 monoqrafiya, 2 tədris vəsaiti və 50-dən çox elmi məqalənin müəllifidir.

Rəmziyə Jurayeva 2023-cü ildə Qazaxıstan Respublikasının Muxtar Avezov adına Cənubi Qazaxıstan Universitetində, 2024-cü ildə isə Tacikistan Respublikasının Bobojon Qafurov adına Xücənd Dövlət Universitetində mobillik proqramlarında iştirak etmişdir.

Hazırda Kokand Dövlət Universitetinin Humanitar və Dillər fakültəsinin Özbək dili və ədəbiyyatı kafedrasında dosent vəzifəsində çalışır.

İkitərəfli əməkdaşlıq çərçivəsində R. Jurayeva qonaq lektor qismində 2026-cı ilin sentyabr-oktyabr aylarında Bakı Slavyan Universitetinin Şərqi Avropa və Balkanşünaslıq fakültəsi tələbələrinə "İxtisas dilinin (özbək) yazı vərdişi və "İxtisas dilinin (özbək) nitq vərdişi fənlərini tədris etmişdir.